Ədalət.- 2021.- 26 yanvar. S. 5.

# VƏTƏN SİZƏ OĞUL DEDİ

## Azərbaycan əsgəri minaya düşərək həlak olub



Azərbaycan Ordusunun daha bir əsgəri minaya düşüb.

Hərbi qulluqçu Cavadov Rəşad Fərzəli oğlu mina partlayışı nəticəsində Şəhid olub.

Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub

## Şəhid Dəmirov Həsən Turan oğlu



12.01.1994-cü ildə Cəlilabad rayonu Muğan kəndində anadan olan Dəmirov Həsən Turan oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Şəhidimiz ailəli idi.

MAXE Həsən Dəmirov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

## Şəhidimiz var...



Çavuş Quluzadə Elşən Qulu oğlu, 22 yaşlı Elşən Füzuli rayonu 2 Mahmudlu kəndində anadan olmuşdu.

11 oktyabr 2020-ci ildə Hadrut istiqamətində gedən döyüşlərdə başından güllə yarası almışdı.

27 gün komada qaldıqdan sonra ayılmışdı.

Ancaq, edilən bütün müdaxilələrə baxmayaraq bu gün Şəhidlik zirvəsinə ucaldı. Şəhidimizə rəhmət, hər birimizə baş sağlığı diləyirik...

## Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub

03.10.1995-ci ildə Sumqayıt şəhərində anadan olan Abışov Telman Nadir oğlu Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.



Aydın Əliyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

## Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub



Cəfərov Rahid Namik oğlu 11.02.2002-ci ildə Cəlilabad rayonu Dələli kəndində anadan olub.

Əsgər Rahid Cəfərov Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Baş gizir Murad Babayev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

## Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub



Babayev Murad Nadir oğlu 31.03.1982-ci ildə Cəlilabad rayonu Sabirabad kəndində anadan olub.

Baş gizir Murad Babayev Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 27.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Şəhidimiz ailəli idi. 13 yaşlı oğlu Samir və 11 yaşlı qızı Zəhra Vətənə əmanət qalıb.

Baş gizir Murad Babayev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Allah rəhmət eləsin!